# ALLAHVERDİYEV NAMİQ MÜSLÜM OĞLU



Namiq Allahverdiyev 5 oktyabr 1967-ci ildə Beyləqan rayonunda anadan olmuşdur. 1984-cü ildə Beyləqan şəhərindəki 1 saylı orta məktəbi bitirdikdən sonra fotoqraf kimi əmək fəaliyyətinə başlamışdır. 1985-ci ildə hərbi xidmətə çağırılmışdır. 1987-ci ildə xidmətini Moskva şəhəri ətrafında başa vurmuşdur. 1988-ci il Qarabağ münaqişəsi zamanı ayrı-ayrı bölgələrdə yerli əhali könüllü müdafiə dəstələri yaradaraq, torpaqların müdafiəsinə qalxırdı. Könüllü müdafiə dəstəsinə ilk yazılanlardan biri də Namiq oldu. O, şərəfli döyüş yolunu 1990-cı ildə Qubadlı rayonunun Əliquluuşağı kəndindən başladı. O, 1991-ci il avqustun 31-dən Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstəsinə daxil oldu və yenidən döyüş meydanına atıldı, Şuşanın müdafiəsində fəal iştirak etdi. Cəsur əsgər Laçın, Əsgəran, Füzuli, Goranboy rayonları uğrunda gedən döyüşlərdə fədakarlıqla vuruşmaqla yanaşı, neçə-neçə girovun geri qaytarılmasında da yaxından iştirak etdi. Onun axırıncı döyüşü Tərtər rayonunda oldu. 9 iyul 1992-ci ildə erməni yaraqlılarının Cəmilli yüksəkliyinə hücumu zamanı tankdan atılan mərmi Namiqin həyatına son qoydu. Bakının Şəhidlər xiyabanında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə Allahverdiyev Namiq Müslüm oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür. Beyləqan şəhərindəki 1 saylı orta məktəb qəhrəmanın adını daşıyır. Rayon mərkəzində büstü qoyulmuşdur.